

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 191 (23.353)

*11 oktyabr 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Türkiyə Respublikasının Təhsil naziri Ziya Selçukun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Dövlətimizin başçısı həmin gün Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhardtın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Türkmənistana işgüzar səfərə gəlib.

* * *

Həmin gün Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Aşqabadda Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşüb.



## Səhiyyə müəssisələrinə təcili tibbi yardım avtomobilləri verilib





Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə digər sahələrlə yanaşı, səhiyyə sistemi də müasirləşdirilmiş, əhali keyfiyyətli tibbi xidmətlə təmin olunmuşdur. Bu gün muxtar respublikada yaradılan ən müasir səhiyyə infrastrukturu da insan amilinə verilən dəyərin daha bir ifadəsidir. Görülən işlər içərisində icbari tibbi sığortanın tətbiqi və təcili tibbi yardım xidmətinin təşkili xüsusi yer tutur.

Oktyabrın 10-da Naxçıvan Muxtar Respublikasının səhiyyə müəssisələrinə 10 təcili tibbi yardım avtomobili təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək demişdir ki, muxtar respublikada səhiyyə sisteminin yenidən qurulması, ixtisaslı kadrların hazırlanması, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması əhalinin bütün təbəqələrinin sağlamlığının qorunması işində əsaslı dönüş yaratmışdır. Səhiyyə infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin və səhiyyə tibbi informasiya sisteminin yaradılması səhiyyə xidmətinin səviyyəsini xeyli yüksəltmişdir. Yeni təcili tibbi yardım avtomobillərinin təqdim olunması da bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır. Niyazi Novruzov yaradılan şəraitə görə muxtar respublikanın səhiyyə işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın səhiyyə müəssisələrinə təcili tibbi yardım avtomobillərinin verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik edərək demişdir: Bu gün ölkəmizdə icbari tibbi sığortanın tətbiqi, həkimlərin peşə hazırlığının və səhiyyə xidmətinin keyfiyyətinin artırılması istiqamətində lazımi tədbirlər görülür. Muxtar respublikada da bu işlər uğurla həyata keçirilir, səhiyyə müəssisələri yenidən qurulur, müasir tibbi avadanlıqlarla təmin olunur. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində həkim hazırlığı aparılır. Artıq muxtar respublikanın bir sıra səhiyyə müəssisələrində icbari tibbi sığorta tətbiq olunur, digər səhiyyə müəssisələrində bu işlər davam etdirilir. İcbari tibbi sığortanın tətbiqi isə müasir avadanlıqların alınması və həkim hazırlığını zəruri edir.



Ali Məclisin Sədri demişdir: Həyata keçirilən tədbirlər muxtar respublika səhiyyəsini yeni inkişaf mərhələsinə çıxarmışdır. Bütün bunlara isə dövlətin və səhiyyə işçilərinin birgə səyi nəticəsində nail olunmuşdur. Səhiyyənin əsas sahələrindən biri də təcili tibbi yardım xidmətinin təşkilidir. Ona görə də muxtar respublikada səhiyyə müəssisələri qurularkən ilkin tibbi yardımın həyata keçirilməsinə xüsusi diqqət yetirilir. İstər mərkəzi xəstəxanalarda, istərsə də kəndlərdə qurulan həkim ambulatoriyalarında ilkin tibbi yardımın göstərilməsi üçün lazımi şərait yaradılır, avadanlıqlar qoyulur, əhalinin keyfiyyətli tibbi xidmətlə təminatı diqqətdə saxlanılır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada 457 mindən artıq əhali yaşayır. Bütün yaş qrupları üzrə əhali keyfiyyətli tibbi xidmətlə təmin olunub. İcbari tibbi sığortanın baza zərfinə daxil olan ilkin tibbi xidmətin təşkili məsələsi bu baxımdan mühüm əhəmiyyətə malikdir. Səhiyyə müəssisələrinə təcili tibbi yardım avtomobillərinin təqdim olunması da bu sahədə xidmətin səviyyəsini xeyli artıracaqdır.

Ali Məclisin Sədri muxtar respublikada infeksion xəstəliklərin, eləcə də ana və uşaq ölümlərinin qarşısının alındığını, həmçinin təcili tibbi yardımın təşkili zamanı ölüm hallarının qeydə alınmadığını bildirmiş, bütün bunlara görə səhiyyə işçilərinə təşəkkür etmişdir.

Şərur Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Adəm İmanov minnətdarlıq edərək demişdir ki, aparılan səhiyyə islahatları, o cümlədən Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi sakinlər tərəfindən razılıqla qarşılanır, tibb işçilərinin əməkhaqlarının artırılması, iş şəraitinin yaxşılaşdırılması isə məsuliyyətimizi artırır. Bu gün Şərur Rayon Mərkəzi Xəstəxanasına da yeni təcili tibbi yardım avtomobili verilir. Çalışacağıq ki, göstərilən etimadı doğruldaq, əhaliyə nümunəvi səhiyyə xidməti göstərək.

Sonra Ali Məclisin Sədri təcili tibbi yardım avtomobillərinin açarlarını təqdim etmişdir.

Türkiyə istehsalı olan təcili tibbi yardım avtomobillərində oksigen balonları, hərəkətli araba və xərəklər, ilkin tibbi yardım çantaları, dərman vasitələri və digər avadanlıqlar qoyulmuşdur. Həmçinin avtomobillərin salonu havalandırma, isitmə, soyutma və işıqlandırma sistemləri ilə də təchiz olunmuşdur. Bu da xəstələrin təxliyəsi zamanı ilkin tibbi müdaxilə və reanimasiya tədbirlərinin aparılmasına imkan verəcəkdir.

Yeni təcili tibbi yardım avtomobilləri Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzə, Təcili Tibbi Yardım Mərkəzinə və rayon mərkəzi xəstəxanalarına təqdim edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Ötən günlərdə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən ənənəvi "Arıçılıq məhsulları – bal festivalı"nda iştirak edirdim. Bölgələrimizdə fəaliyyət göstərən ailə təsərrüfatçılarının festivala çıxardıqları tonlarla, çeşid-çeşid, keyfiyyətli bal və digər arıçılıq məhsullarının sorağına muxtar respublika sakinləri ilə yanaşı, yerli və xarici qonaqlar da gəlmişdilər. Həmsöhbət olduğum turistlər diyarımızın müasir inkişafı, təmiz havası, turizm imkanları və keyfiyyətli məhsullarından razılıqla danışırdılar. Bunun nəticəsidir ki, bal istehsalçılarının istifadə etdikləri məhsullar bir zamanlar alıcısını gözləyirdisə, indi bu məhsulların satışa çıxarılması üçün geniş imkanlar mövcuddur. Hətta Naxçıvan balının sorağına xarici ölkələrdən də gəlirlər. Elə buna görə də festivala çıxarılan balın, demək olar ki, hamısı satılır. Türkiyəli turistlərdən biri ilə söhbət zamanı dedi ki, hər il bu festivalın keçiriləcəyi günü səbirsizliklə gözləyirəm. Bu festivalların əksəriyyətində olub illik bal tədarükümü artıq buradan əldə edirəm.*

Naxçıvan Muxtar Respublikası – 95

# Naxçıvan: idxaldan ixraca aparan uğurlu inkişaf yolu

Festival iştirakçılarından "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinin direktoru Əfqan İsmayılov isə qeyd etdi ki, bu brend ilə satılan məhsullara ölkəmizin digər bölgələrində də tələbat böyükdür. Onlar arasında Naxçıvan balına xüsusi maraq var. Təkcə bu il muxtar respublikanın arıçılıq təsərrüfatlarından 1,6 ton bal alaraq bu mağazalarda satışını təşkil etmişik. Builki festivalı fürsət bilib Naxçıvanın keyfiyyətli balını yenidən digər bölgələrdəki alıcılara təklif etdik. Bu məqsədlə, hələlik, 400 kiloqram bal alaraq mağazalar şəbəkəsinə göndərmişik...

"Arıçılıq məhsulları – bal festivalı"nda gördüklərimiz bizi bir daha Naxçıvanımızda istehsal olunan məhsulların ixracına, eləcə də bu yola qədər keçən tarixi dövrə bir daha nəzər salmağa vadar etdi. Bu gün nəinki bal, üzərində "Naxçıvan Muxtar Respublikası" yazılan yüzlərlə məhsul var ki, ölkəmizin digər bölgələrinə və dünyanın bir çox yerlərinə ixrac edilir. Bütün bunların şahidi olarkən diyarımızın qısa müddət ərzində keçdiyi sürətli inkişaf yoluna sevinməmək mümkün deyil. Bir zamanlar yalnız qonşu ölkələrdən gələn məhsullar hesabına yaşayan Naxçıvan bu gün regionun əsas ixracatçısına çevrilib.







Adətən, blokada vəziyyətində yaşayan məkan barədə danışanda gözlərimizin önündə çətin sosial-iqtisadi vəziyyət canlanır. Bəlkə də, Nuhun yurdu Naxçıvanda da ötən illər ərzində görülən işlər olmasaydı, burada da həmin acı reallıq hökm sürməkdə idi. Eynilə ötən əsrin 90-cı illərinin əvvəllərindəki kimi... Ancaq gələcəyə ümidimizi heç vaxt itirmədik və ulu öndərimiz Heydər Əliyevin ətrafında sıx birləşərək Ermənistanın işğalçılıq siyasəti nəticəsində ölkənin əsas hissəsindən təcrid olunmuş, blokada vəziyyətinə düşmüş Naxçıvanı qoruduq, yaşatdıq, inkişaf etdirdik. Bugünkü inkişafımızın təməli məhz o illərdə müdrik şəxsiyyətin qətiyyəti, cəsarəti və uzaqgörən siyasəti nəticəsində qoyuldu.

Böyük fransız maarifçisi Volter qeyd edib ki, "İş ideya üçün yaranmır, ideya iş üçün yaranır". Bu illərdə Naxçıvan Muxtar Respublikasının keçdiyi hərtərəfli inkişaf yolu da məhz xalq və dövlət üçün formalaşan ideyanın real həyatda təzahürünə çevrildi. Elə buna görə də muxtariyyətinin 95-ci ilində Naxçıvan bütün dünyaya daha möhkəm əsaslarla inkişaf edən, tərəqqinin zirvəsinə yüksələn, zəngin resurslarını ixrac potensialına çevirən bir diyar kimi təqdim olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında ümummilli liderimizin uğurlu siyasi yoluna sadiqlik Naxçıvanın ötən dövr ərzində daim irəli getməsini təmin etdi. Bu yol muxtar respublika haqqında düşüncələrdə canlanan bütün mənfi stereotipləri məhv etdi. Muxtar diyarımızın ölkənin ən öndə gedən məkanlarından birinə çevrilməsi, blokada şəraitində belə, davamlı sosial-iqtisadi inkişafa nail olunma tendensiyası gündəmə gətirib.

İcrası uğurla reallaşdırılan ardıcıl dövlət proqramları sayəsində Naxçıvan artıq enerji və keyfiyyətli məhsul ixracatçısı, beynəlxalq tədbirlərə ev sahibliyi edən və Şərqlə Qərbi bir-birinə qovuşduran mühüm coğrafi məkan kimi dünya turizminə öz töhfəsini verən inkişaf etmiş diyar kimi tanınır. Bu gün artıq Naxçıvan Muxtar Respublikası dedikdə davamlı və dayanıqlı inkişaf yolunda olan, ixrac imkanlarını hər il daha da artıran müasir bir diyar göz önünə gəlir. Naxçıvan artıq öz inkişafı ilə nüfuzlu beynəlxalq qurumların da diqqətini cəlb edir. Muxtar respublika artıq investorların diqqətini cəlb edən böyük iqtisadi potensiala çevrilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club"un ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqinə görə Naxçıvan Muxtar Respublikası ötən 2 il ard-arda ən yüksək ümumi bal toplayaraq investisiya reytinqində lider olub.

Muxtar respublikada sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsi olaraq yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, mövcud istehsal müəssisələrinin yenidən qurulması istiqamətində aparılan uğurlu islahatlar bu sahənin sürətli inkişafına zəmin yaradıb. 1995-ci ildən ötən dövr ərzində mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulması, yeni istehsal sahələrinin yaradılması nəticəsində muxtar respublikada sənaye müəssisələrinin sayı dəfələrlə artıb. Belə ki, əgər 1995-ci ildə muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 56 idisə, 20 il sonra bu göstərici 440-ı ötüb.

Əgər 1996-cı ildə muxtar respublikada 10 adda məhsul istehsal olunurdusa, bu gün 383 növdə məhsul istehsal olunur. Bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir. Bütün bunlar isə muxtar respublikada istər sənayenin, istərsə də kənd təsərrüfatının inkişafı, sahibkarlıq fəaliyyəti üçün yaradılan şərait nəticəsində mümkün olub. Bir faktı da qeyd etmək yerinə düşər ki, hazırda muxtar respublikada məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır. Sənaye sahəsində məhsul istehsalının 94, tikintidə görülən işlərin və nəqliyyat xidmətinin 78, rabitə xidmətinin 82, kənd təsərrüfatı, ticarət və ictimai iaşə xidmətlərinin isə 100 faizi özəl bölmənin payına düşür ki, bu da çox yüksək göstəricilərdir.

Yaradılmış münbit şərait bu gün ticarət əlaqələrinin genişlənməsinə, yüksəkkeyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına çıxarılmasına imkan verir. Məhz bunun nəticəsidir ki, muxtar respublikada rəqabətqabiliyyətli, yüksək alıcı rəğbəti qazanan məhsullar istehsal olunur.

Müasir dövrdə iqtisadi inkişafın mühüm göstəricilərindən biri xarici ticarət hesab edilir. Məhsul və xidmətlərin ixracı hesabına əhali rifahının təmin olunması günümüzdə iqtisadi siyasətin əsas hissələrindən birini təşkil edir. Nəticədə, yerli imkanlar hesabına istehsal olunan məhsullar və göstərilən xidmətlər yüksək alıcılıq qabiliyyətinə malik olur. Bütün bunlar isə diyarımıza valyuta gəlirlərini artırır. Bu baxımdan hazırkı dövrdə muxtar respublikamızdan xaricə göndərilən ixracyönümlü mal və xidmətlər sosial-iqtisadi inkişafa mühüm töhfələr verir.

Nəzərə alaq ki, əvvəllər ilk mərhələdə keyfiyyətli məhsul istehsal etməklə əhalinin tələbatını ödəmək əsas şərt idisə, bu gün həmin məhsulların rəqabət qabiliyyətini artırmaqla ixracına nail olmaq qarşıda duran əsas vəzifələrdən biridir. Artıq məhsullarımız daxili bazarda öz yerini getdikcə möhkəmləndirir. Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Rusiya, İraq, Gürcüstan və digər ölkələrə muxtar respublikadan dəri, mebel, daş və beton məhsulları, sement, gips və gips lövhələr, mineral sular, vafli məmulatları və bir çox məhsul ixrac edilir. Təkcə cari ilin yanvar-iyun aylarında muxtar respublikanın xarici ticarət dövriyyəsi 219 milyon 259 min 400 ABŞ dolları təşkil edib. Xarici ticarət dövriyyəsinin 191 milyon 612 min 200 ABŞ dollarını ixrac, 27 milyon 647 min 200 ABŞ dollarını idxal təşkil edib və 163 milyon 965 min ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

Bəli, məhz sistemli tədbirlər nəticəsində Naxçıvanda istehsal olunan məhsulların ixrac imkanlarının artması ilə yanaşı, iqtisadi əlaqələr də genişlənib. Qarşılıqlı razılaşmaya əsasən muxtar respublikada istehsal edilən və ya belə potensiala malik bəzi sənaye və kənd təsərrüfatı məhsullarına Türkiyə Respublikasına sərbəst ticarət imkanının verilməsi ixrac potensialımızı daha da gücləndirib. Bu gün Naxçıvan məhsullarına xarici marağın artmasının nəticəsidir ki, qardaş Türkiyə Respublikasında Naxçıvan məhsullarının satışı mağazaları fəaliyyət göstərir.

Muxtar respublikada ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara dəstək verilir. İstər ölkəmizdə, istərsə də xaricdə keçirilən mühüm iqtisadi tədbirlərdə, o cümlədən biznes forumlar, sərgilər, seminar və konfranslarda naxçıvanlı sahibkarların iştirakı təmin edilir. Son illər keçirilmiş 200-dən çox yerli və beynəlxalq əhəmiyyətli tədbirdə muxtar respublikadan 1000-dən çox nümayəndə iştirak edib, 500-dən çox çeşiddə məhsul Rusiya, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, Türkiyə, Belarus, Avstriya, Polşa, İran və digər ölkələrdə nümayiş olunub.



Xarici ticarətin inkişafına stimul verən əsas amillərdən biri yerli xammalla yanaşı, bu xammalı keyfiyyətli məhsula çevirəcək sahibkarlıq mühitinin formalaşmasıdır. Muxtar respublikada sahibkarlıq fəaliyyəti və ticarət üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq xarici ticarət əlaqələrinin coğrafiyası daha da genişlənib. Bu mənada, son illər tətbiq olunan ailə təsərrüfatları modelinin uğurlarından da bəhs etmək yerinə düşər.

Muxtar respublika iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etdiyindən əməkqabiliyyətli əhalinin böyük bir hissəsi məhz aqrar sektora məxsus ərazilərdə, yəni kəndlərdə məskunlaşıb. Kəndlərdə ailə təsərrüfatlarının yaradılması nəticəsində iş üçün şəhərə üz tutanlar elə yaşadıqları yerdə öz məşğulluqlarını təmin edə bilirlər. Bu isə ailə təsərrüfatçılığının, başqa sözlə desək, mikrosahibkarlığın inkişafına, eləcə də daxili bazarın yerli məhsullarla təmin edilməsinə və ixracyönümlü məhsulların istehsalının həcminin artmasına stimul yaradır. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada 1000-dən çox kiçik və böyük ailə təsərrüfatı mövcuddur. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması bu fəaliyyət sahəsinə marağı daha da artırıb, yeni yaradılan ailə təsərrüfatları doğma diyarımızın iqtisadiyyatına öz töhfəsini verir.

Hər hansı bir müstəqil dövlətin iqtisadi gücü, hər şeydən əvvəl, onun enerji təhlükəsizliyindən asılıdır. Çünki enerji asılılığı olan yerdə nə sənayenin, nə də ki digər sahələrin inkişafından söz gedə bilməz. Dönüb geriyə, müstəqilliyimizin ilk illərinə baxsaq, sənaye, xüsusilə enerji asılılığı cəhətdən zəif bir mənzərənin şahidi olarıq. O illər muxtar respublikamızın enerji sarıdan günümüzdən fərqli olaraq tamamilə idxaldan asılı olduğu bir dövr idi. Enerjinin idxal olunduğu yerdə heç bir iqtisadi inkişafdan söz gedə bilməz. Ancaq günümüzdə daxili tələbatımızı ödəyib, enerjini ixrac edib və ondan da gəlir əldə edə biliriksə, heç şübhəsiz, bu, aparılan güclü iqtisadi siyasətin nəticəsidir.

Bu gün muxtar respublikanın əlverişli iqlim şəraiti və coğrafi mövqeyi ekoloji cəhətdən təmiz, alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə enerji təhlükəsizliyinin təmin olunmasında, energetika sektorunda davamlı inkişafı təmin edib, bu sahədə müasir infrastruktur yaradılıb. Hazırda muxtar respublikada Günəş və su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ümumi istehsalın 100 faizini təşkil edir. Bir sözlə, hidroenerji resurslarından və günəş enerjisindən səmərəli istifadə muxtar respublikada enerji təhlükəsizliyini



təmin etməklə yanaşı, qonşu ölkələrlə enerji mübadiləsi aparmağa da imkan verir. Bu gün Naxçıvan artıq qaranlıqda çırpınan, qonşudan gələn enerjiyə göz dikən bir diyar deyil. Bu gün artıq Naxçıvan istehsal etdiyi enerjini xaricə çıxaran zəngin bir diyardır.

*Ümumiyyətlə, Naxçıvanın dünənindən bu gününə baxdıqda əldə olunan uğurları bütün sahələr üzrə müqayisə etmək mümkündür. Buradan isə belə nəticəyə gəlmək olar ki, əzmkarlıq, xalq və vətən sevgisi qarşısıalınmaz qüvvədir və bu qüvvə xəyalını belə, çətinliklə qurduğumuz bütün arzularımızı reallığa çevirib. Bir anlığa dönüb geriyə baxanda, müstəqillik illərimizin ilk dövrlərindən başlayaraq Naxçıvanın yaşadığı çətin, imtahan dolu günlərinin arxada qaldığını görəndə bir daha dərk edirik ki, bugünkü mənalı və rifah dolu həyatımızı dəyərləndirməliyik. Ümumilikdə isə həqiqət budur ki, Naxçıvan tarixin heç bir dövründə belə güclü və iqtisadi qüdrətə malik bir məkan olmayıb. Naxçıvan idxaldan ixraca gedən uzun bir yolu qısa zamanda addımlayan, gündən-günə çiçəklənən bir diyardır.*

✍ **Gülcamal TAHİROVA**

***Bu yazı "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

## Misir saytında yerləşdirilən məqalədə Batabat gölünün gözəlliklərindən bəhs olunur




*Misir Respublikasının m.gomhuria-online.com saytında ərəb dilində “Azərbaycanın əsrarəngiz gölü ilin dörd fəslini eyni zamanda qarşılayır” başlıqlı məqalə yerləşdirilib. Məqalənin müəllifi Bolqarıstanda yaşayan amerikalı Elison Qrindir.*

Ötən il Naxçıvana səfər edən Qrin burada qarşısına çıxan gözəlliklərlə bağlı foto və yazılarını müxtəlif internet resurslarında paylaşır. Misir saytında verilən məqalədə isə qeyd edilir ki, Naxçıvan Azərbaycanın digər yerləri ilə müqayisədə tamamilə başqa coğrafiya və landşafta malikdir. Öz dağları və gölləri ilə məşhurdur. Buradakı Batabat gölü ayrı bir mənzərədir. Dağların zirvəsindəki qar yazın son günlərinə qədər qalır. Bu buzlaqları əridən isti günəş şüaları və qarın yaxınlığında bitən, gölü əhatə edən çiçəklər adamı valeh edir. Dağlardakı qar qış, gölün ətrafındakı əlvan çiçəklər isə yaz mənzərəsi yaradır. Yəni burada, eyni zamanda 4 fəsli görmək möcüzəsini yaşayırsan. Bu göl isə dağlardan əriyən buzlaqların suyu ilə qidalanır. Amerikalı turist qeyd edir ki, gölün havası çox dəyişkəndir. Çünki o dəniz səviyyəsindən 2500 metr hündürlükdə yerləşir.

Səyyah yazır: “Naxçıvan şəhərindən gölə qədər olan məsafədə landşaft o qədər zəngindir ki, tez-tez dəyişən mənzərələrə baxanda bir saatlıq yolu necə getdiyinin fərqinə vara bilmirsən”. Məqalə bu sözlərlə bitir: “Bu gölün sahilində gəzib gözəllikdən zövq almaq və onun şəklini çəkmək istəyənlər özləri ilə bərabər kamera da götürməyi yaddan çıxarmasınlar”. Müəllif özü də bir neçə maraqlı foto paylaşıb.

**Anar TAĞIYEV**

## Naxçıvandakı Duzdağ haqqında Tehranda keçirilən konqresdə məlumat verilib

Oktyabrın 10-da Tehranda “İslam ölkələrinin 4-cü beynəlxalq səhiyyə konqresi” keçirilib. Tədbirə Azərbaycan, Türkiyə, Qətər, Küveyt, Əfqanıstan, İndoneziya, Malayziya, Banqladeş və digər dövlətlərin təmsilçiləri qatılıb. Ölkəmizi bu konqresdə “My Travel” şirkətinin icraçı direktoru Elnara Cabbarova təmsil edib.

Tədbirdə İslam ölkələrinin turizm və səhiyyə sahəsində əməkdaşlıq əlaqələrinin inkişafı məsələləri müzakirə edilib.

Konqres çərçivəsində “Turizm və səhiyyə turizmi sektorunda işgüzar əməkdaşlıq üzrə İran-Azərbaycan görüşü” baş tutub. Görüşdə İslam ölkələrində səhiyyə turizminin inkişafı mərkəzinin direktoru Mehdi Kərimi çıxış edib. Qeyd olunub ki, İslam ölkələrinin böyük turizm potensialı var və bu dövlətlər qarşılıqlı əməkdaşlıq nəticəsində səhiyyə turizmi sahəsini inkişaf etdirə bilərlər.

“My Travel” turizm şirkətinin icraçı direktoru Elnara Cabbarova Azərbaycanın səhiyyə turizmi potensialı haqqında geniş məlumat verib. O, videoslaydların müşayiəti ilə Naftalan, Duzdağ barəsində, buradakı otellər və xidmətlər haqqında danışıb. Qeyd olunub ki, müxtəlif xəstəliklərin müalicəsi üçün Naftalan nefti olduqca əhəmiyyətlidir.

Elnara Cabbarova konqresdəki çıxışında Naxçıvandakı Duzdağ Fizioterapiya Mərkəzinin bronxial-astma xəstəliyinin müalicəsi üçün əvəzolunmaz yer olmasından da ətraflı danışıb. Qeyd edilib ki, hazırda həmin səhiyyə ocağında ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar da müalicə olunurlar.

Təqdimat zamanı Bakı, Qəbələ, Şəki və Azərbaycanın digər gəzməli və görməli yerləri haqqında da geniş məlumat verilib.

***“Nuhçıxan” İnformasiya Agentliyi***

## *“Gələcəyə doğru”* layihəsi çərçivəsində görüş

***Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin birinci kursunda təhsil alan tələbələrlə “Gələcəyə doğru” layihəsi çərçivəsində görüş olub. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkil etdikləri görüş Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində keçirilib.***



Tədbirdə çıxış edən Gənclər və İdman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov bildirib ki, dövlət gənclər siyasəti ölkəmizdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Gənclər muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirak edirlər. Bu gün muxtar respublikamızda gənclərin məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, onların milli ruhda və hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği diqqət mərkəzindədir.

“Muxtar respublikamızda hər zaman diqqətdə saxlanılan məsələlərdən biri də gələcək nəslin təhsili yetişdirilməsidir”, – deyən Azad Cabbarov vurğulayıb ki, hazırda diyarımızda əhalinin 140 min nəfərdən çoxunu, yaxud 30 faizini 14-29 yaşda olan gənclər təşkil edir. Onların yüksək səviyyəli təhsillə təmin olunmaları məqsədilə 200-dən çox ümumtəhsil məktəbi, Heydər Əliyev adına Hərbi Lisey, 26 uşaq musiqi məktəbi, 5 peşə məktəbi əsaslı təmir edilərək və ya yenidən qurularaq istifadəyə verilib. Bu gün muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri müasir standartlara cavab verir.

Qeyd edilib ki, muxtar respublikada idmanın maddi-texniki və təşkilati-hüquqi bazası da xeyli möhkəmləndirilib. Yaradılan şəraitin nəticəsidir ki, hazırda muxtar respublikada 40 minə yaxın yeniyetmə və gənc bədən tərbiyəsi və idmanla məşğul olur. Naxçıvanlı idmançılar ölkə və dünya əhəmiyyətli yarışlarda təmsil olunur və uğurlara imza atırlar. Hazırda muxtar respublikada 2 Olimpiya İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, Şahmat Mərkəzi, 7 Uşaq-gənclər şahmat məktəbi, 9 Uşaq-gənclər idman məktəbi, Atıcılıq Mərkəzi və digər idman obyektləri tikilərək istifadəyə verilib.

Nazir diqqətə çatdırıb ki, gənclər yaradılan şəraitə və onlara göstərilən qayğıya cavab olaraq dövlətçiliyimizin möhkəmləndirilməsində və ölkəmizin inkişafında potensial imkanlarını səfərbər etməlidirlər.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra katibi Anar İbrahimov partiyanın cəmiyyətimizdəki mövqeyi və siyasi sistemdəki rolu, Naxçıvan Muxtar Respublika Təşkilatı, yerlərdəki qurumlarının fəaliyyəti barədə tələbələrə məlumat verib. Qeyd edilib ki, ulu öndərin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının əsas ideoloji istiqamətləri – qanunçuluq, Azərbaycançılıq, vətənçilik, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi, sosial ədalət və müstəqil dövlətçilik prinsipləri real və işlək bir sistem yaratdığı üçün bu gün partiya ətrafında 742 mindən çox Azərbaycan vətəndaşı birləşib. Bu gün Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 55 min 954 üzvü var və onların 42 faizə yaxını gənc, 3262 nəfəri isə tələbədir.

Anar İbrahimov vurğulayıb ki, muxtar respublikada həyata keçirilən hər bir tədbir, təşəbbüs, siyasət bu partiyanın adı ilə bağlıdır. Bu gün muxtar respublikanın parlamentində Yeni Azərbaycan Partiyasının 41 üzvü, bələdiyyələrin isə mütləq əksəriyyətində partiya üzvləri təmsil olunurlar. Yeni Azərbaycan Partiyası həm də siyasi bir məktəbdir. Məqsədimiz bu potensialdan istifadə edərək muxtar respublikamız, ölkəmiz üçün gələcək nəsil vətəndaşını yetişdirmək, eyni zamanda gənclərlə bir yerdə olmaqdan ibarətdir.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq iqtisadi münasibətlər ixtisasının II kurs magistrantı, “Naxçıvan” Universitetinin İdarəetmə fakültəsinin tyutoru Tural Məmmədzadə çıxışında bildirib ki, göstərilən diqqət və qayğıya cavab olaraq bugünkü gənclik öz üzərində çalışmalı, yüksək səviyyədə təhsil almağa səy göstərməlidir.

Tədbirdə muxtar respublikada həyata keçirilən gənclər siyasəti ilə bağlı slayd və Naxçıvan televiziyasının hazırladığı qısametrajlı film nümayiş etdirilib.

Daha sonra muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbə-gənclər təşkilatları arasında “İntellekt döyüşü” adlı layihə çərçivəsində keçirilən “Xəmsə”, “Poliqon”, “Axtar tap” və “Nə? Harada? Nə zaman?” intellektual oyunların qalibi olan komandalar mükafatlandırılıb.

Görüş Naxçıvan Musiqi Kollecinin “Gənclik” instrumental ansamblının rəngarəng musiqi nömrələri ilə davam edib.

**✍ Ceyhun MƏMMƏDOV**

***Cəmiyyətin tələbatlarının artdığı və eyni zamanda da məhdud resursların daha da qiymətli hala gəldiyi bir dövrdə iqtisadi artımın sabit dinamikasını təmin etmək, uğurlu sahibkarlıq subyektlərinin yeni biznes ideyaları ilə buna imkan yaratmaq müasir dünya iqtisadiyyatının əsas problemlərindəndir. Klassik mənada ənənəvi biznes və idarəçilik üsullarından yeni startap layihələrinə keçid də bu baxımdan sərt qlobal iqtisadi rəqabətin və cəmiyyətin dərinləşən sosial-humanitar imperaitlərindən irəli gələn bir çağırışdır. Muxtar respublikamızda da startap layihələrinin dəstəklənməsi gənclərin fəal yaradıcı biznes hərəkatına qoşulması üçün ən əlverişli zamanın gəldiyinin bir göstəricisidir.***

*Mətbu startap layihələri*

## İqtisadi biliklərlə müasir startapçılığa doğru

Startap böyük biznesə gedən yoldakı ilk parlaq ideyadır. Bu yoldakı hər bir uğurlu gəncin motivasiya vasitəsi isə şübhəsiz, təhsildən başlayır. Məhz innovativyönlü təhsillə ərsəyə gələn insanların gözündə yaşadığımız planet həmişəkindən daha kiçik, onun sakinlərinin mədəni tələbatları isə sonsuzdur. Bunu ödəyə bilmək üçün gerçək mənada əsl təhsil alıb özünə, ailəsinə və dövlətinə faydalı əməyi ilə xidmət etmək istəyənlər üçün isə indi meydan həmişəkindən daha genişdir. Xüsusən ölkəmizdə və muxtar respublikamızda azad bazar iqtisadiyyatı münasibətlərinə keçidlə sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraitin yaranması, bu sahədə yenilikçi olan hər bir kəsə ciddi dövlət dəstəyinin göstərilməsi yeni dövrdə startapçılıq sahəsində də insanların daha cəsarətli olmasına gətirib çıxarıb.

Startapçı olmaq üçün iqtisadi savadla yanaşı, iti düşüncə, təhlil, mühakimə və məntiq əsas keyfiyyətlərdəndir. Bir çoxları startapçı olmaq üçün yalnız internet, yaxud kompüter biliklərinin əsas götürüldüyünü düşünsələr də, bunların, sadəcə, bir vasitə olduğunu artıq tələbələr də bilirlər. Bu mənada, startapçı olmaq üçün nələri bilməli, yaxud hər yeni ideyanın biznes baxımından hansı məhsul verə biləcəyi kimi sualları təhlil edərkən onun cavabını internetdə axtarmaq əvəzinə real situasiyanın mövcud şərtlərə görə qiymətləndirilməsi, bazar faktorları, beynəlxalq aləmdəki vəziyyət və insan resursları potensialının nəzərə alınması tələb olunur. Bu baxımdan yeni startapçıların yaradılmasında iqtisadi biliklərə sahib insanlara ehtiyac daha da artmaqdadır.

İqtisadiyyat həmişə dinamik inkişaf edən bir sahədir. Bir elm kimi iqtisadi biliklər insan həyatında həmişə lazım olub. Hələ Aristotelin iqtisadiyyatı bir ev təsərrüfatı kimi izah etməyə çalışdığı dövrdə də insanlar yaxşı yaşamaq üçün təməl iqtisadi qanun və kateqoriyaların mahiyyətini bilməyin vacib olduğunu dərk edirdilər. Zaman keçdikcə insanlar iqtisadi biliklərə yiyələnməklə, son nəticədə, təkcə özləri üçün bütün cəmiyyətə faydalı olmağın yollarını necə tapmağı da öyrəndilər. Artıq müasir dövr iqtisadiyyatı cəmiyyətin tələbatlarının önündə gedən, yeni tələb formalaşdırmaqla təklif üçün də bazar imkanları yaradan, bununla da dinamizmi körükləyərək daha geniş inkişaf dalğasına yol açan bir vasitəyə çevrilib. Bu gün iqtisadi həyatdakı nəhənglər sırasında öz sözünü deyə bilən bir zamanların startapçıları da önündəki açıq yollardan biznes dünyasına atılmış sadə gənclər olublar.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatı müasir inkişaf trendləri ilə hər cür innovativ yeniliyə açıq olub, bazar iqtisadiyyatının tələblərinə uyğun bir modellə böyüməkdədir. Son dövrlərin iqtisadi təhlilləri baza ilinə nisbətən hər hesabat dövründə iqtisadi artımın sabit dinamika ilə müşahidə olunduğunu, bunu yaradan sosial-iqtisadi faktorların isə proqnoz edilə bilinməsi ilə izah olunur. Muxtar respublikada yerli resurslara əsaslanan istehsal və xidmət sahələrinin inkişafına xüsusi diqqət yetirilməsi, ərzaq və enerji təhlükəsizliyi məsələsinin özünəməxsus yolla qəti şəkildə həlli və iqtisadiyyatın müxtəlif sahələrində məhsuldar olan kadr hazırlığı belə yeniliklərin daha sürətli şəkildə mənimsənilməsini şərtləndirən amillərdəndir. 4G sürətli mobil internetin Naxçıvan Muxtar Respublikası ərazisinin 99 faizini əhatə etməsi, təhsil müəssisələrində ən yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi buradakı beyin gücünün dünyada baş verən bütün yenilikləri cəmi 1 saniyə fərqlə izləyə bilməsinə imkan yaradır. Artıq iqtisadi sahə ilə yanaşı, sosial-mədəni həyatdakı müasirlik də naxçıvanlıların həyat tərzinin ayrılmaz elementlərini təşkil edir. İdman, rabitə, turizm və asudə vaxtın təşkili, şəhərin nəqliyyatı, məişət xidmətləri və digər sahələrdə muxtar respublika əhalisinə təklif olunan xidmətlər yeni həyat standartları ilə bərabər, həm də yeni tələbatlar doğurur. Bütün bunlar isə öz növbəsində, startapçılar üçün yeni ideyaların başlanğıcıdır.

İqtisadi həyatdakı yeni fürsətlərin gəlirə çevrilməsi yollarının tapılması iqtisadi biliklərin əsas hədəflərindəndir. Bu mənada, bugünkü iqtisadçılar üçün dünya iqtisadiyyatında riskdoğuran faktorların öyrənilməsi və bunların hansı yolla yeni bazar imkanlarına çevrilməsi həm nəzəri, həm də praktik baxımdan çox əhəmiyyətlidir. Bundan əlavə, muxtar respublikamızın təbii ehtiyatları, onun xarici ticarət əlaqələri, diyarımıza səyahət edən turistlərin sayı, onların ölkə mənşəyi və səyahət motivləri də startapçılar üçün aktual dəyirmi masa mövzusudur. Xüsusən Naxçıvanın Şərqlə Qərbin qovşağındakı mühüm mövqeyi, artan əhali tələbatları, regionda lüks xidmətlərin getdikcə daha çox populyarlaşması və keyfiyyətə nəzarətdə yüksək standartların tətbiqi belə diskussiyaların əsas arqumentlərindəndir. Artıq hər yerdə yeni ideya müəllifləri öz fikirlərini əsaslandırmaq üçün belə arqumentlərin real həyatda praktik nümunəsi üçün inkişafın Naxçıvan modelinə istinad edirlər.

Startapçı olmaq bu gün hər zamankından asan və cazibədardır. Hazırda dünyada məşhur olan startapçıların keçdiyi uğurlu yol, onların cəmiyyətdəki imici və muxtar respublikamızda gənc startapçıların formalaşması üçün verilən dəstək iqtisadi həyatdakı yeniliklərlə bərabər, bir növ cəmiyyətimizdə hamının ehtiyacı olduğu yeni düşüncəli bir təbəqənin də yaranması üçün motivasiya doğurur. Bu motivasiyanın reallığa çevrilməsi üçün isə indi hər cür imkanlar vardır. Dövlətimiz qəti şəkildə inanır ki, bu günün startapçısı gələcəyin sahibkarı və cəmiyyətin sütunu olan orta təbəqənin nümayəndəsi kimi insanlara yeni iş yerləri və pozitiv enerji bəxş edəcək.

**✍ Əli CABBAROV**

**_Bir neçə ildir ki, ənənəvi olaraq Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış təşkil olunur. Bu il oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının Tədbirlər Planına əsasən təşkil olunan növbəti ongünlük sərgi-satış da yaddaqalan olub. Bu günlər ərzində sərgini minlərlə sakin və qonaq ziyarət edib._**

# Təxəyyül gücü, əl əməyi və göz nuru ilə ərsəyə gələn yaradıcılıq nümunələri





Elə mən də yolumu sərgi-satışdan salarkən sarayın foyesində böyük izdihamla qarşılaşdım. Muxtar respublikamızda formalaşan nümunəvi kollektiv təşkilatçılıq ənənəsinin bu sərgidə də şahidi olduq. Sərginin keçirildiyi günlərdə fərdi şəkildə sərgi-satışda iştirak edənlərlə yanaşı, ayrı-ayrı idarə, təşkilat və müəssisələrin kollektivləri də saraya gələrək bu dəyərli sənət əsərləri ilə tanış olur, istedadlı şəxslərin sənət dünyasının sehrinə düşürdülər.

Burada muxtar respublika İqtisadiyyat Nazirliyinin əməkdaşı Vüqarə Əliyeva ilə əl əməyi, göz nurundan ərsəyə gələn bəzək əşyaları seçib alarkən həmsöhbət oldum. Vüqarə xanım bildirdi ki, qadınlarımız həyatın bütün sahələrində təmsil olunurlar. Bizim günümüzün bir neçə saatı iş vaxtına ayrılır. Yəni bu cür əlavə yaradıcılıq işləri ilə məşğul olmağa zamanımız qalmır. Lakin hər bir xanım maraqlı, zövqoxşayan nə isə hazırlamağı çox sevir. Elə budur, baxın görün, burada necə də gözəl və diqqətçəkən yaradıcılıq nümunələri vardır?! Adi bir kağız və ya odun parçasından zövqləri oxşayan xeyli sənət əsəri ortaya çıxıb. Toxuculuq nümunələri, muncuqlardan yaradılan əl işləri, deyərdim ki, birisinə bağışlanacaq ən dəyərli hədiyyələrdir. Təxəyyülünün gücü ilə bu hədiyyələri hazırlayan xanımlarımıza “əhsən!” – deyirik. Onların nümayiş etdirdikləri yaradıcılıq nümunələri həm də bizim estetik zövqümüzü oxşayır. Bu əl işlərinə heyranlıqla baxmamaq mümkün deyil. Mənim burada diqqətimi çəkən çoxlu sənət əsəri var. Sözün düzü, hansından alım, seçim edə bilmirəm.

Etiraf edim ki, mən də Vüqarə xanım kimi bu rəngarəng aləmin sehrinə düşüb ən yaxşısını seçməyə çalışırdım. Çətinliyim isə buradakı suvenirlərin, bəzək əşyalarının, rəsm əsərlərinin, xalçaçılıq, toxuculuq nümunələrinin, dekorativ əsərlərin hər birinin fərqli bir gözəlliyin təcəssümü olmasında idi.

Ümumilikdə, 305 müəllifin 4 minə yaxın rəsm əsəri və əl işi Heydər Əliyev Sarayının foyesini al-əlvan çalarlara bürümüşdü. Burada istedadlı, sağlamlıq imkanları məhdud evdar xanımlarla yanaşı, müxtəlif sahələrdə fəaliyyət göstərən qadınların, Heydər Əliyev Uşaq-Gənclər, Texniki Yaradıcılıq mərkəzlərinin dərnək rəhbərlərinin və üzvlərinin, şagird və tələbələrin, Naxçıvan Biznes Mərkəzinin emalatxanasında çalışan qadınların da əl işləri sərgilənirdi.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin elmi işçisi, folklorşünas Aytən Cəfərovanın isə diqqətini bir məqam cəlb etmişdi. O bildirdi ki, burada əsərləri nümayiş etdirilən istedadlı xanımlarımız həm də xalq yaradıcılığı, folklor ənənələrimizi təbliğ edirlər. Tarixin hansı dövrünü vərəqləsək, qadın fədakarlığının, qəhrəmanlığının şahidi olarıq. Bu gün də qadınlarımız cəmiyyət həyatının bütün sahələrində fəallıq nümayiş etdirirlər. Onlar həm də xalq yaradıcılığı, folklor nümunələrimizin əsas yaşadıcısı kimi bu günümüzü gələcəyə daşıyan zərif qüvvədirlər. Buradakı xalça və toxuculuq nümunələri, ağac üzərində oyma əsərləri, rəngarəng suvenirlərin üzərindəki süjet xətti, naxış və ornamentlər ideya cəhətdən milli adət-ənənələrimizi, xalqımızın məişətini təcəssüm etdirir. Qadınlarımız bu işləri ilə keçmişimizdən bu günümüzə, eyni zamanda bu günümüzdən sabahımıza körpü salıb milli dəyərlərimizi gələcəyimizə ərməğan edirlər.

Aytən xanımın fikirləri ilə desək, qadınlarımız zaman-zaman iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə olduğu kimi, incə zövqləri, bədii təxəyyülləri ilə də cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında mühüm rol oynayıblar. Sərgidə biçmə, toxuma, tikmə, milli geyimlər, xalçaçılıq, yağlı boya ilə çəkilmiş rəsm əsərləri, milli üslubda bəzədilmiş suvenirlər, pannolar, güllərdən hazırlanan kompozisiyalar, muncuq və digər bəzək əşyaları qadınların yüksək yaradıcılıq potensialından və incə zövqündən xəbər verir. Toxuma-tikmə nümunələri, təbii daş-qaşlardan hazırlanan bəzək əşyaları ilk baxışdan diqqəti cəlb edir. Zərif və bacarıqlı əlləri ilə bu işlərə həyat verən Səriyyə Seyidova istedadı ilə yaradıcı xanımlarımız sırasında özünəməxsus yer tutur. O qeyd etdi ki, bu işlərə uşaqlıqdan həvəs göstərib. Lakin dekorativ-tətbiqi sənətlə 3 ildir ki, məşğul olur. Sərgilərə çıxarılan əl işlərinə böyük maraq göstərilməsi bu sahəyə olan həvəsini daha da artırıb. Bu stimul artıq onu da keçirilən sərgilərin iştirakçısına çevirib. Səriyyə xanım builki sərgiyə 450-dən çox əl işi çıxarmışdı. Söhbət zamanı öyrəndik ki, bu əsərlərin 300-dən çoxu artıq satılıb. Ötən 3 il ərzində ən çox satışa bu il nail olduğunu deyən Səriyyə xanım qeyd etdi ki, əl işləri arasında təbii daşlardan hazırladığı təsbehlərə daha çox maraq göstərilib.

Milli dəyərlərimizi özündə ehtiva edən sərgi-satışın fəal iştirakçılarından biri də yaradıcı xanım Reyhanə Rəhimovadır. Demək olar ki, onun əl işləri çox adama tanışdır. Çünki 10 ildən artıqdır ki, könlünü bu sənətə verib. Onun naxış-naxış, ilmə-ilmə işlədiyi toxuculuq nümunələri ilə keçirilən sərgilərdə tanış olmuşuq. Reyhanə xanım, əsasən, balacalar üçün paltarlar toxuyur. Sözügedən sərgiyə çıxardığı 123 əl işinin artıq 100-dən çoxu satılmışdı.

Şahbuz şəhər sakini olan Reyhanə xanım dedi ki, bu sənəti anamdan öyrənmişəm. Toxuculuq sənətinin incəliklərinə tam bələd olduqdan sonra sərgilərdə iştirak etməyə başlamışam. İlk dəfə rayonda təşkil olunan Novruz şənliyində əl işlərimi sərgiyə çıxardım. O vaxtdan başlayaraq rayonda və Naxçıvan şəhərində təşkil olunan sərgilərə mütəmadi olaraq qatılıram. 4 ildir ki, sərgi-satışlardan yaxşı gəlir əldə edirəm. Sağ olsun dövlətimiz ki, istedadlı qadınların üzə çıxarılmasına, sənət adamlarına diqqət və qayğı ilə yanaşır. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən dəfələrlə diplom və mükafatlara layiq görülmüşəm. Bu, sənətə olan həvəsimi daha da artırır. Növbəti sərgilərdə daha çox əl işi ilə iştirak etməyi düşünürəm.

Xuraman Səfərova 22 ildir ki, toxuma-tikmə sənəti ilə məşğuldur. O, əsasən, milli geyimlər hazırlayır. Bundan başqa, almaz qaşlarla işlədiyi tablolar da sərgidə, xüsusilə seçilirdi. Bu tablolar sırasında ən çox diqqətçəkən Bəhruz Kəngərlinin portretidir. Xuraman xanım söhbətimiz zamanı 5 ildən artıqdır ki, sərgilərdə iştirak etdiyini bildirdi. Dedi ki, budəfəki sərgiyə 2500-dən çox əl işi çıxarıb. Sərginin ilk günündən böyük maraqla qarşılanıb. Qeyd edək ki, Xuraman Səfərova Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Onun yaradıcılıq nümunələri hər zaman seçilib. Bunun ifadəsidir ki, ulu öndər Heydər Əliyevin 95 illik yubileyi ilə bağlı keçirilən sərgidə 1-ci dərəcəli diplomla mükafatlandırılıb. Bu mükafatın onun həyatına silinməz izlər buraxdığını qeyd edən Xuraman xanım əməyinə verilən qiymətə görə minnətdarlıq da etdi.

Sərgi-satışda nümayiş etdirilən bir-birindən dəyərli rəsm əsərləri və əl işləri bir daha göstərdi ki, muxtar respublikada istedadlı qadınların yaradıcılıqlarının üzə çıxarılması və inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Belə tədbirlərdə onların əsərləri geniş ictimaiyyətə təqdim olunur, satılaraq qadınlarımıza müəyyən gəlir gətirir. Bu sərgilər həm də təsdiq edir ki, qadınlarımızın istedadı xalqımızın soykökü, genetik xüsusiyyətləri ilə birbaşa bağlıdır.

Ümumiyyətlə, qadınların zövqlü dünyasının sehrinə düşdüyümüz sərgi iştirakçıların hər biri kimi, məndə də gözəl təəssürat yaratdı. Bu sərgi sənətə bağlı bütün insanlarda rəğbət hissi oyadır. Çünki görülən hər bir iş gərgin zəhmət, bəlkə də, yuxusuz gecələr bahasına başa gəlib.

Sərgidə mənim ən çox diqqətimi cəlb edən üzərində Azərbaycan bayrağı əks etdirilən gəmi maketi oldu. Bu gözəl əsərin müəllifi isə Texniki Yaradıcılıq Mərkəzinin Raket kosmik modelləşdirmə və təyyarə modelçiliyi dərnəyinin rəhbəri Tofiq Əhmədovdur. O, sağlamlıq imkanları məhdud olmasına baxmayaraq, yaşayıb-yaratmaqdan zövq alır. Deyir ki, bu sənəti uşaq və gənclərə aşılamaq üçün bütün bacarığımı sərf edirəm. Onlarla birlikdə maraqlı əl işləri ərsəyə gətiririk. Bu əsərlərdən 3-nü buradakı sərgiyə çıxarmışdım. Demək olar ki, hər kəsin diqqətini cəlb etdi. Bu, məni çox sevindirdi. Həqiqətən də, sənətə və sənətkara qiymət verən insanlarımız var. Bütün bunlar yaradıcı adamları daha səylə çalışmağa həvəsləndirir.

Tofiq Əhmədov kimi onlarla məhdud fiziki imkanlı şəxs dövlət dəstəyi nəticəsində həyata qırılmaz tellərlə bağlanıb. Bu qəbildən olan istedadlı şəxslər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin də fəal təşkilatçılığı ilə muxtar respublikada keçirilən sərgi-satışlarda, festivallarda yaxından iştirak edirlər. Başa çatan növbəti sərgi-satışda məhdud fiziki imkanlı yaradıcı şəxslərin fəal iştirakı da bunu bir daha təsdiq etdi.

Qeyd edək ki, on gün keçirilən sərgidə 305 müəllifin əl işi nümayiş olunub. Həmin yaradıcılıq nümunələrindən 272 müəllifin 20 min 298 manat dəyərində 1629 əl işi satılıb. Bu isə sağlamlıq imkanları məhdud şəxslərin və qadınların məşğulluğunun təmin olunmasında böyük əhəmiyyətə malikdir.

***P.S.*** *Bütün belə tədbirlərin izləyicisi və həm də təbliğatçısı olan qəzetimizin əməkdaşları da sərgi-satışdan yüksək təəssüratlar qazanıblar.*

✍ **Gülcamal TAHİROVA**

# Maarifləndirici tədbirlər davam etdirilir

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası bu kateqoriyadan olan uşaqların təhsilə cəlbinin davamlılığını təmin etməklə yanaşı, onların inklüziv və məsafədən təhsil imkanlarının genişlənməsinə və cəmiyyətə inteqrasiyasına əlverişli şərait yaradıb.

Dövlət proqramının icrası ilə əlaqədar həyata keçirilən tədbirlərin davamı olaraq, dünən Şərur rayonunda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrindən ibarət komissiya tərəfindən maarifləndirici görüş keçirilib. Tədbirdə Şərur rayonunda yerləşən ümumtəhsil məktəblərində tədrisə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqların valideynləri, bu kateqoriyadan olan uşaqlara fənləri tədris edən müəllimlər və məktəb psixoloqları iştirak ediblər. Məktəblərdə psixoloji xidmətin təşkili, sağlamlıq imkanları məhdud uşaqların təhsilinin səviyyəsi ilə bağlı psixoloqlar tərəfindən hazırlanan fərdi proqramlar haqqında söhbətlər aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Futbol Federasiyası daha bir ilkə imza atır

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının (NFF) birgə təşkilatçılığı ilə 13-14 yaşlı futbolçulardan ibarət Naxçıvan yığmasının Şərur Olimpiya İdman Kompleksində təlim-məşq toplanışı davam edir.***




Birhəftəlik toplanışda 24 futbolçu iştirak edir. Naxçıvanın ev sahibliyi edəcəyi beynəlxalq turnirə hazırlıq məqsədi daşıyan təlim-məşq toplanışına NFF-nin böyük məşqçisi Əsgər Abdullayev rəhbərlik edir. Federasiyanın gələcək inkişaf strategiyası üçün müəyyən olunan proqramda uşaq futboluna xüsusi önəm verildiyindən təcrübəli mütəxəssis “Araz-Naxçıvan”la yanaşı, azyaşlı futbolçularla da çalışır. Təlim-məşq toplanışında Naxçıvan yığma komandasının məşqçilər heyəti də iştirak edir. Futbolçuların sağlam şəkildə qidalanması və gündəlik rejim normalarına riayət etmələrinə diqqətlə yanaşılır.

Gün ərzində iki dəfə məşq prosesi keçən komanda Əsgər Abdullayevin nəzəri məşğələlərində də iştirak edir. Oyun sistemini futbolçulara aşılamağa çalışan böyük məşqçi meydanda yarana biləcək müxtəlif epizodlar zamanı mümkün çıxış yollarını izah edir, hücum həmlələri və taktiki gedişlər barədə onları məlumatlandırır. Futbolçuların motivasiyasını yüksəldə biləcək əyləncəli oyunlar keçirilir, psixoloji söhbətlər aparılır, məşq proseslərində rəqabət atmosferi yaradılır.



Təlim-məşq toplanışının məqsədi 13-14 yaşlı futbolçular arasında ilk dəfə olaraq təşkil olunacaq “Naxçıvan kuboku – 95” turnirinə hazırlıqdır. Artıq turnirin keçirilmə vaxtı və məkanı bəllidir. Belə ki, oktyabrın 14-də başlayacaq turnirə ayın 18-də yekun vurulacaq. Turnirdə 6 komandanın iştirakı nəzərdə tutulub. Azərbaycan komandaları ilə yanaşı, bəzi ölkələrin də komandalarının mübarizə aparacağı ilk turnirdə qonaqlar muxtar respublikamıza bir gün əvvəl – oktyabr ayının 13-də gələcəklər. Şərur Olimpiya İdman Kompleksində yerləşəcək komandalar ilk iki turun oyunlarını kompleksin stadionunda oynayacaqlar. Digər oyunlar isə Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək.

Sonda qalib komandalar təşkilatçılar tərəfindən mükafatlandırılacaqlar.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 696